

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
24 aprel 2025-ci il, cümə axşamı
№ 068 (6896)
Qiymәti 60 qәpik

# Strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa...



# Azərbaycan-Çin münasibətlərində yeni səhifə







Bax səh. 2-3

# Azərbaycan-ŞƏT əlaqələri üçün mühüm perspektivlər...







Bax səh. 5

# YAP nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib

## Çin dördüncü ticarət tərəfdaşımızdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Pekində Çin Xalq Respublikasının Dövlət Şurasının Baş naziri Li Çianq ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ötən ilin iyulunda Azərbaycan və Çin arasında qəbul edilən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin münasibətlərimizin yüksək səviyyəsini göstərdiyi bir daha vurğulanıb. Qeyd olunub ki, münasibətlərimiz qısa vaxtda - bir ildən də az müddətdə strateji tərəfdaşlıqdan hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu da öz növbəsində əlaqələrimizin inkişaf dinamikasını...

Bax səh. 3

## Asiya nəhənginin Azərbaycanda "yaşıl sərmayə" planları

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri ölkəmiz üçün olduqca uğurlu razılaşmalar və mühüm sənədlərin imzalanması ilə yadda qalıb. Azərbaycan və Çin arasında imzalanmış sənədlər sırasında bərpaolunan enerji sahəsində əməkdaşlıq anlaşmaları mühüm yer tutur. Azərbaycanın Energetika Nazirliyinin iştirakı ilə Çin və Azərbaycan şirkətləri arasında imzalanmış sənədlər "yaşıl enerji" mənbələrinin istehsalı, emalı və ötürülməsini...

Bax səh. 5

## Azərbaycan-Türkiyə-Pakistan birliyi güclənir

Pakistan İslam Respublikası Azərbaycanla Türkiyə üçün dost və qardaş ölkə hesab olunur. Uzun illərdir ki, ölkələrimiz həm ikitərəfli, həm də müxtəlif platformalar çərçivəsində fəal əməkdaşlıq edirlər. Aprelin 22-də Pakistanın Baş naziri Şahbaz Şərifin Türkiyəyə səfəri və səfər zamanı verilən bəyanatlar bu reallığı təsdiqləyir.

**Türkiyə və Pakistan terrorla fəal mübarizə aparır**

Liderlərin birgə mətbuat konfransında Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə ilə Pakistan arasındakı əməkdaşlıq...

Bax səh. 6

## Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

Mərkəzi Bank (MB) uçot dərəcələri ilə bağlı növbəti qərarını açıqlayıb. MB İdarə Heyətinin aprelin 23-də qəbul etdiyi qərara əsasən, uçot stavkası dərəcələri sabit saxlanılıb. Belə ki, uçot dərəcəsi 7,25 faiz, dəhlizin aşağı həddi 6,25 faiz, yuxarı həddi isə 8,25 faiz səviyyəsində dəyişməz qalıb. Faiz dəhlizi ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə (4+2 faiz) müqayisəsi, qlobal iqtisadiyyatda və maliyyə bazarlarındakı vəziyyət, ölkədaxili makroiqtisadi meyillərin təhlili və pul siyasəti qərarlarının real sektora ötürücülüyü nəzərə alınmaqla qəbul olunub...

Bax səh. 6



## Yelisey Sarayı Yeni Kaledoniyanın bayrağından niyə qorxur?

Bax səh. 7



## London görüşü niyə baş tutmayıb?

Bax səh. 7



# Strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa...



## Azərbaycan-Çin münasibətlərində yeni səhifə

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 23-də rəsmi qarşılanma mərasimi olub.
AZƏRTAC xəbər verir ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.

Sədr Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafını və əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd edib.

Söhbət zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan birgə bəyanat məmnunluqla xatırlanıb. Bu gün (dünən- red.) dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyanatda isə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinin daha bir pillə yüksələcəyi qeyd edilib.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunulub.

### Terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizə

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib.

Görüşdə Azərbaycanın və Çinin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulanıb. Dövlətimizin başçısı “Vahid Çin” siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd edib. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olundu.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib.



Prezident İlham Əliyev buna görə təşəkkürünü bildirərək, COP29 çərçivəsində qlobal iqlim gündəliyi üçün vacib qərarların qəbul edildiyini xatırladıb.

Dövlətimizin başçısı öz növbəsində Si Cinpinin müdrik rəhbərliyi ilə Çinin inkişafına toxunub.

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğu bildirilib, artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlərin imzalandığını və praktiki əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunulub, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri qeyd olunub.

Ticarət dövriyyəmizin son dövrlərdə 20 faizdən çox artması müsbət qiymətləndirilib.

Çin Xalq Respublikasının Sədri “Bir kəmər, bir yol” layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycanın olduğunu məmnunluqla xatırladıb. Bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq məsələlərinin perspektivləri müzakirə olunub.

Son dövrlərdə Orta Dəhliz vasitəsilə Çindən Avropaya gedən yüklərin həcmində artım dinamikası məmnunluqla qeyd edilib və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulanıb.

Strateji tərəfdaşlığa dair Birgə Bəyanatda qeyd edildiyi kimi, Azərbaycanın Qlobal Təhlükəsizlik, Qlobal İnkişaf və Qlobal Sivilizasiyalar, həmçinin bəşəriyyətin vahid taleyi kimi Çinin təşəbbüslərini dəstəklədiyi bildirilib, bununla bağlı əməkdaşlıq məsələlərinə toxunulub.

Sin Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə Toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət edib.

# Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə 2025-ci il aprelin 22-dən 24-dək Çin Xalq Respublikasına dövlət səfəri etmişdir.

Hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar apardılar. Hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul etdilər.

1. Tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, “Tayvanın müstəqilliyi”nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir.

Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

2. Tərəflər strateji oriyentir kimi dövlət başçılarının diplomatiyasını və ən yüksək səviyyədəki mühüm razılaşmaları rəhbər tutacaqlarını, ikitərəfli münasibətlərin davamlı və uzunmüddətli inkişafını təşviq edəcəklərini bəyan etdilər.

Tərəflər Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında siyasi dialoqun möhkəmləndirilməsini dəstəkləyirlər. Hər iki tərəf praktiki əməkdaşlığı irəlilətmək üçün müntəzəm mexanizmlər çərçivəsində hökumətlər arasında əlaqələrin gücləndirilməsinə hazır olduqlarını təsdiqlədilər. Tərəflər beynəlxalq və regional təşkilatlarda fəaliyyətin əlaqələndirilməsi də daxil olmaqla qanunverici orqanlar xətti üzrə təmasları və mübadilələri dəstəkləyir, Xarici İşlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr keçirmək əzmindədirlər.

3. Tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün “Bir kəmər, bir yol” təşəbbüsünün Azərbaycanın “İpək Yolunun dirçəldilməsi” dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşdılar.

4. Tərəflər ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunu gücləndirməyi davam etdirməyə hazır olduqlarını ifadə etdilər. Ticarət, investisiyalar, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsini, eləcə də ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə vermək üçün investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olundu. Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Tərəflər ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün institusional zəmanətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə azad ticarətə dair sazişlə bağlı danışıqlara başlamağa hazır olduqlarını ifadə etdilər.

Çin, Çin Beynəlxalq İdxal Məhsulları Sərgisi (CIIE), Çin İxrac və İdxal Məhsulları Yarmarkası (Canton Fair), Çin Beynəlxalq Xidmətlər Ticarəti Yarmarkası (CIFTIS), o cümlədən Çin Beynəlxalq İnvestisiya və Ticarət Forumu (CIFIT) daxil olmaqla, Azərbaycanın Çində keçirilən böyük sərgi tədbirlərində fəal iştirakını alqışlayır, Azərbaycan tərəfindən Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar platformasında, eləcə də Çin elektron ticarət şəbəkələrində tematik təqdimatların keçirilməsini və əlaqələrin qurulmasını dəstəkləyir. Azərbaycan Çinin aparıcı şirkətlərinin Azərbaycan ərazisində keçirilən böyük sərgilərdə və forumlarda iştirakını alqışlayır.

5. Tərəflər sənaye sahəsində əməkdaşlığı daim dərinləşdirməyə və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəlilətməyə hazır olduqlarını ifadə edirlər. Tərəflər neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə iki ölkənin müəssisələrini kommersiya əsaslı əməkdaşlığın möhkəmləndirilməsində, dərinləşdirilməsində və genişləndirilməsində dəstəkləyirlər.

6. Tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək, bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirirlər.

7. Tərəflər iki ölkənin nəqliyyat sahəsindəki əməkdaşlığını yüksək qiymətləndirir və regional qarşılıqlı əlaqələri təşviq edərək, nəqliyyat infrastrukturunun inkişafına, logistika və daşınmaların səmərəliliyinin artırılmasına dəstəyi davam etdirməyə hazır olduqlarını bildirirlər.

Tərəflər Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Beynəlxalq Multimodal Daşımalar haqqında Sazişin imzalanmasını yüksək qiymətləndirdilər. Çin birgə şəkildə təhlükəsiz, sabit, birbaşa və Çin-Avropa-Çin transxəzər ekspress-marşrutları yaradaraq, gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq etməyə hazırdır. Hər iki tərəf beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin razılaşdırılmasının və bağlanmasının sürətlənməsində, Azərbaycan və Çin arasında avtomobil daşımaları üçün əlverişli şəraitin səviyyəsinin artırılmasında, ikitərəfli ticari-iqtisadi əməkdaşlıq üçün dayaq yaradılmasında maraqlıdır.

Tərəflər qeyd edirlər ki, Çinin keçirdiyi Nəqliyyatın Dayanıqlı İnkişafı üzrə Qlobal Forum dayanıqlı nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün müsbət əhəmiyyətə malikdir.

8. Tərəflər elmi-tədqiqat müəssisələrini və elm işçilərini qarşılıqlı maraq kəsb edən mövzularda birgə tədqiqatlar aparmağa, texnologiya transferinə və əldə olunan nailiyyətlərin kommersiyalaşdırılmasına təşviq edəcəklər, habelə birgə elmi-tədqiqat platformaları yaradacaqlar.

9. Tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldilər.

Tərəflər mədəni və yaradıcı kollektivlər xətti üzrə əməkdaşlığı təşviq edəcək, xalqlar arasında qarşılıqlı anlaşmanı dərinləşdirmək və sivilizasiyalararası mübadiləni təşviq etmək məqsədilə qarşılıqlı Mədəniyyət günlərinin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər turizm siyasətinin əlaqələndirilməsini gücləndirməyə, bir-birinin ərazisində turizmin təşviqi üçün tədbirlərin təşkilinə imkan yaratmağa, turizm müəssisələri, sahəvi assosiasiyalar və digər institutlar arasında profil əlaqələrini dəstəkləməyə, həmçinin ikitərəfli turist axınının və vətəndaşların qarşılıqlı səfərlərinin artırılmasında birgə fəaliyyət göstərməyə hazırdırlar.

Tərəflər səhiyyə, idman, kinematoqrafiya və televiziya sahələrində əməkdaşlığı genişləndirəcək, gənclər və akademik dairələr xətti üzrə dostluq əlaqələrini artıracaqlar.

Tərəflər qarşılıqlı səfərlər, informasiya və təcrübə mübadiləsi vasitəsilə media sahəsində əməkdaşlığın genişləndirilməsini dəstəkləyirlər.

Tərəflər insanlar arasında mübadilənin daha da sadələşdirilməsinə kömək etməyə hazır olduqlarını bildirirlər, bütün sahələrdə əlaqələrin və əməkdaşlığın aktivləşdirilməsi üçün təkan olacaq ümumvətəndaş pasportuna malik şəxslər üçün vizaların qarşılıqlı ləğvi haqqında hökumətlərarası Sazişin razılaşdırılmasını və imzalanmasını alqışlayırlar.

Tərəflər Heydər Əliyev Fondu ilə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası və ŞƏT-in Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsi arasında qurulmuş tə-

**davamı 3-cü səhifədə**

# Azərbaycan-ŞƏT əlaqələri üçün mühüm perspektivlər...

## Çin Bakının ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləyir

### Birgə Bəyanatda ölkəmizin təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğu bildirilir

**Müasir qlobal çağırışları əsas götürərək çoxtərəfli əlaqələrin inkişafını hədəfləyən Azərbaycan qısa zaman kəsiyində mühüm uğurlara imza atıb. Yeni dövrdə beynəlxalq münasibətlər sistemində olduqca aktiv mövqe tutmuş ölkəmiz çoxtərəfliliyin təşviqi ilə bağlı mühüm bir yol keçib - yürütdüyü çoxvektorlu xarici siyasət kursu Azərbaycanın bugünkü uğurlarının ən mühüm komponentlərindən birinə çevrilib. Yerləşdiyi geocoğrafi məkan siyasi nöqteyi-nəzərdən kataklizmlərin davamlı hal aldığı region kimi dəyərləndirilsə də, Azərbaycan Cənubi Qafqaz da daxil olmaqla hətta sərhəddindən kənarda yerləşən ölkələr üçün də sabitləşdirici faktor kimi çıxış edir.**

**Böyük güclərin heç bir müdaxiləsinə imkan verməyən, bölgəsəl prosesləri həm regionun, həm də dövlət olaraq özünün siyasi-ictimai maraqlarına uzlaşdıran Azərbaycanın uğur formulunun açarı məhz bununla izah edilir - bütün yanaşmalarında ədalət prinsipinin qorunması və çoxtərəfliliyə sədaqət nümayiş etdirməsi. Rəsmi Bakı hər zaman bəyan edir ki, Azərbaycan qəti şəkildə çoxtərəfliliyə sadiqdir.**

### Azərbaycanın ŞƏT ilə əməkdaşlığı müxtəlif sahələri əhatə edir

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əlaqələri bu mənada mühüm əhəmiyyət daşıyır. ŞƏT-in regional və qlobal səviyyədə böyük perspektiv vəd etməsi, geniş iqtisadi potensial, siyasi dividendlər amili, həmçinin qurumun prinsiplərinin, məqsədlərinin Azərbaycanın gündəliyinin bir çox məsələləri ilə üst-üstə düşməsi ölkəmizin maraqları ilə uzlaşır. Paralel olaraq Azərbaycan qurumda təmsil olunan əksər dövlətlər ilə ikitərəfli platformada əlaqələrə malikdir. Artıq illərdir ki, Azərbaycan ŞƏT-in Zirvə toplantılarında, sammitlərində iştirak edir. 2015-ci ilin 9-10 iyul tarixlərində Rusiyanın Ufa şəhərində keçirilmiş ŞƏT-in Zirvə toplantısı zamanı qəbul edilmiş qərara əsasən Azərbaycana ŞƏT-də dialoq üzrə tərəfdaş statusu verilib. Prezident İlham Əliyev 17 may 2016-cı il tarixində "Azərbaycan Respublikasına Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında" Memorandumu təsdiqləyib. Ölkəmiz, eyni zamanda, bir neçə il öncə təşkilatdakı statusunu müşahidəçi statusuna qədər yüksəltmək üçün ŞƏT-in Katibliyinə rəsmən müraciət edib.

Ötən ilin iyulunda Qazaxıstanın paytaxtı Astanada keçirilən ŞƏT-ə üzv ölkələrin növbəti Zirvə görüşündə də Azərbaycan təmsil olunub. "ŞƏT+" formatında keçirilən Sammitə 16 ölkənin dövlət və hökumət başçıları qatılıblar. "Çoxtərəfli dialoqun möhkəmləndirilməsi - davamlı sülhə və inkişafa nail olmaq" mövzusuna həsr olunan Zirvə görüşündə ŞƏT-ə üzv ölkələrin dövlət və hökumət başçıları siyasi, iqtisadi-ticari, mədəni-humanitar əməkdaşlıq və digər məsələlərə dair geniş spektrdə aktual mövzularla bağlı müzakirələr aparıblar. Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində bildirib ki, ötən il Qazaxıstan Respublikası Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə mən ŞƏT-in sammitində iştirak etdim: "Hazırda Azərbaycan ŞƏT-də dialoq üzrə tərəfdaş statusuna malikdir.

Azərbaycanın ŞƏT ilə əməkdaşlığı terrorizmlə, ekstremizmlə və separatçılıqla mübarizə, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi kimi müxtəlif sahələri əhatə edir. Həmçinin sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın dəstəklənməsi kimi məsələlər diqqət mərkəzindədir. Məlum olduğu kimi, ölkəmiz bu sahələr üzrə beynəlxalq arenada fəal rol oynayır".




Paralel olaraq həmin sammitdə Qazaxıstandan sonra Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyin Çinə keçəcəyi

### "Şanxay ruhunun təşviqi: ŞƏT fəaliyyətdədir" devizi...

məlum olub. Assosiasiyanın növbəti, yəni builki sammiti Çində keçiriləcək. Vurğulanmalıdır ki, Çin-Azərbaycan münasibətlərinin yüksək ruhda inkişafı Azərbaycanın ŞƏT ilə əlaqələrinin daha da möhkəmləndirilməsində də əlavə impuls yaradır. Təsadüfi deyil ki, aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"da da vurğulanır ki, Azərbaycan Çinin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) sədrliyini dəstəkləyir və Çin tərəfinin ŞƏT-in keyfiyyətcə inkişafı üçün göstərdiyi əməli səylərini yüksək qiymətləndirir: "Azərbaycan "ŞƏT-in Dayanıqlı İnkişaf İli" tədbirlərində fəal iştirak etməyə və Təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirir. Çin Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləyir".

Qeyd edək ki, həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Təşkilat 2001-ci ildə Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Təşkilatın əsas məqsədləri isə üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir. Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində bildirib ki, Çinin "Şanxay ruhunun təşviqi: ŞƏT fəaliyyətdədir" devizi altında təşkilata sədrliyi onun institusionallaşdırılmasına və beynəlxalq arenada rolunun gələcəkdə də möhkəmlənməsinə kömək edəcək: "ÇXR ŞƏT-in təsisçi ölkələrindəndir və təşkilatın inkişafının aparıcı güclərindən biri olaraq qalır. Əminəm ki, Çinin sədrliyi üzrə geniş proqramı çərçivəsində səyləri ŞƏT prinsipləri əsasında çoxtərəfli əməkdaşlığın möhkəmlənməsinə, həmçinin onun vəzifələrinin həyata keçirilməsinə əlavə impuls verəcək".

### Azərbaycanın ŞƏT ilə əməkdaşlığı müxtəlif sahələri əhatə edir

Bütün beynəlxalq təşkilatlarla olduğu kimi, ŞƏT-lə əlaqələrin möhkəmləndirilməsi işgüzar, qarşılıqlı maraqlara əsaslanan və hörmət əsasında formalaşır. Azərbaycan yerləşdiyi bölgənin aparıcı iqtisadi-siyasi ölkəsi, bir sözlə regionun lideri kimi bu əməkdaşlığın regional mahiyyət qazanması üçün səy göstərir. Azərbaycan-ŞƏT əməkdaşlığı bütövlükdə, Cənubi Qafqaz üçün yüksək perspektiv yaradır. Əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən sahələr üzrə müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir. Ölkəmiz Avrasiya məkanında xüsusi mövqe və çəkisi olan ŞƏT ilə əməkdaşlıqda iqtisadiyyat, ticarət, energetika, investisiyalar, humanitar, turizm və digər sahələr üzrə mövcud əməkdaşlıq perspektivlərini yüksək dəyərləndirir. Növbəti sammitlərdə bu əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində inklüziv əməkdaşlıqların müxtəlif istiqamətləri ilə bağlı addımların atılacağı gözlənilir. Eyni zamanda, yeni dönəm üçün sədr olan Çinin ŞƏT-in maraqları çərçivəsində ölkəmizdə əməkdaşlıq perspektivlərini daha da gücləndirməsi bütövlükdə təşkilat ilə Bakı arasında münasibətləri mühüm bir zirvəyə yüksəldə bilər. Prezident İlham Əliyev bildirib ki, biz ŞƏT-in fəaliyyətinə böyük əhəmiyyət veririk və bu təşkilatın təməlində dayanan prinsipləri bölüşürük: "Regionda etibarlı tərəfdaş və mühüm dövlət olan Azərbaycan beynəlxalq və regional sülhün, təhlükəsizliyin bərqərar olmasına töhfə verməkdə davam edir, ticarət, kommersiya və investisiya əlaqələrinin genişlənməsinə yönəlmiş, bununla da qlobal iqtisadi inkişafa və Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına kömək edən irimiqyaslı iqtisadi-ticari, nəqliyyat, infrastruktur və energetika sahələrində layihələr həyata keçirir.

Həmçinin əminəm ki, ölkələrimizin sıx ikitərəfli qarşılıqlı fəaliyyəti Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcək".

***Pərviz İSMAYILOV***

# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, qızı Leyla Əliyeva və digər ailə üzvləri Pekində Böyük Xalq Sarayında







Aprelin 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, qızı Leyla Əliyeva və digər ailə üzvləri Pekində Böyük Xalq Sarayı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Pekinin mərkəzində, Tiananmen meydanının qərb tərəfində yerləşən Böyük Xalq Sarayı Çinin ən yüksək səviyyədə dövlət tədbirlərinin və mərasimlərinin, o cümlədən Çin Kommunist Partiyasının qurultaylarının, ali qanunverici orqan olan Çin Xalq Nümayəndələri Yığıncağının illik iclaslarının keçirildiyi, xarici dövlətlərin rəhbərlərinin rəsmi qarşılanma mərasimlərinin təşkil olunduğu dövlət sarayıdır.

Çin Xalq Respublikasının qurulmasının 10-cu ildönümü ilə əlaqədar inşa edilmiş Böyük Xalq Sarayı 1959-cu ildə istifadəyə verilib. Çin xalqının milli birliyinin rəmzi olaraq dizayn edilmiş saray 3 hissədən ibarətdir. Kompleksə Böyük və Əsas auditoriumlar, Konqres, ziyafət, rəsmi qonaqların qarşılanması zalları, Çin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin ofis binası daxildir. Böyük Xalq Sarayında Çinin hər bölgəsinin adına zallar var.

Saray dövlət tədbirlərinin olmadığı vaxtlarda ayın müəyyən günlərində ictimaiyyətin ziyarəti üçün açıq olur.

# YAP nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib















Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Kommunist Partiyasının dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunda iştirak etmək üçün Çin Xalq Respublikasına səfər edib.

Aprelin 23-də YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy ilə nümayəndə heyətlərinin rəhbərləri arasında keçirilən görüşdə iştirak edib. Ma Sinjuy Çinin Foruma dəvət olunmuş bütün siyasi partiyaların təmsil etdikləri ölkələrlə istər ikitərəfli, istərsə də Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb.

Daha sonra nümayəndə heyəti Urumçi şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunun açılış mərasimində və plenar sessiyasında iştirak edib. 23 ölkədən 200 nəfərə yaxın nümayəndənin iştirak etdiyi Forumun açılış mərasimində Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Cyançao, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Nurlan Yermekbayev, eləcə də bir sıra üzv ölkələrin siyasi partiya təmsilçilərinin çıxışlarında 2001-ci ildə yaradılmış ŞƏT-in bugünədək keçdiyi inkişaf yoluna nəzər salınaraq təşkilatın Avrasiyada siyasi dialoq və qarşılıqlı faydalı əməkdaşlıq şəraitində sabitlik, təhlükəsizlik və dayanıqlı inkişafa verdiyi töhfələr xüsusi vurğulanıb. Qeyd olunub ki, ŞƏT-in daimi sülh və çoxtərəfli işbirliyini təşviq edən beynəlxalq təşkilat kimi nüfuzunun artması onun üzvləri və tərəfdaşlarının sayının çoxalmasını da şərtləndirib.

YAP nümayəndə heyəti Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Cyançaonun adından verilən rəsmi ziyafətə də qatılıb.

Səfər çərçivəsində, həmçinin nümayəndə heyətinin Urumçi Şəhər Planlaşdırılması Muzeyi, Urumçi Şəhər İdarəetmə Mərkəzi, Urumçidəki Beynəlxalq Sərgi və Konfrans Mərkəzindəki terrorizm və ekstremizmlə mübarizə sərgisi ilə tanışlığı olub. Eyni zamanda, muxtar rayonun Çantsi şəhərində elektrik enerjisinin ötürülməsi və transformasiyası üçün avadanlıqlar istehsal edən TBEA şirkətinin qərargahı və Sincan Kənd Təsərrüfatı Sərgi Parkına ziyarət təşkil edilib.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev daxildir.

# Asiya nəhənginin Azərbaycanda "yaşıl sərmayə" planları

## Çin şirkətlərinin ölkəmizdə rəqəmsal və "yaşıl layihələr"də iştirakına dair yeni sazişlər imzalanıb

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri ölkəmiz üçün olduqca uğurlu razılaşmalar və mühüm sənədlərin imzalanması ilə yadda qalıb. Azərbaycan və Çin arasında imzalanmış sənədlər sırasında bərpaolunan enerji sahəsində əməkdaşlıq anlaşmaları mühüm yer tutur. Azərbaycanın Energetika Nazirliyinin iştirakı ilə Çin və Azərbaycan şirkətləri arasında imzalanmış sənədlər "yaşıl enerji" mənbələrinin istehsalı, emalı və ötürülməsini, bu sahədə güc infrastrukturlarının qurulmasını, dayanıqlı potensialın şaxələndirilməsini nəzərdə tutur.

İki ölkənin energetika strukturlarının imza atdığı İnvestisiya Müqaviləsinə əsasən, Bakı ətrafında 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası layihəsində yer alacaq Çin şirkətləri bu ərazidə "yaşıl texnologiyaları"n qurulması və enerji tədarükünü təmin edəcək. Layihənin növbəti mərhələsində şirkətlə elektrik enerjisinin alqı-satqı, ötürücü şəbəkəyə qoşulma və torpaq icarə müqavilələri imzalanacaq. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il təxminən 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 86 min ton azaltmağa imkan verəcək. Bu layihə üzrə Çin şirkəti ilə əməkdaşlıq hərrac vasitəsi ilə müəyyənləşdirilib.

### Dənizdə 2 QVt gücündə külək elektrik stansiyasının inşası

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında əldə edilmiş razılıq isə Xəzər dənizində külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icranı nəzərdə tutur. Müqaviləyə əsasən, Xəzər dənizində külək enerjisi potensialının qiymətləndirilməsi, bu sahədə layihələrin planlaşdırılması və inşası üzrə əməkdaşlıq ediləcək. Bu çərçivədə mərhələli əsasda minimum 2 QVt gücündə dənizdə külək elektrik stansiyasının qiymətləndirilməsi, inkişaf etdirilməsi, layihələndirilməsi, maliyyələşdirilməsi, mühəndisliyi, tikintisi, istismara verilməsi və texniki xidmət üzrə əməkdaşlıq nəzərdə tutulur.

Çinin "ağıllı texnologiyalar" üzrə tanınmış korporosiyalarından biri olan "China Energy International Group Co.,Ltd." hazırda dünyanın bir çox ölkəsində bərpaolunan enerji güclərinin inteqrasiyası, külək enerjisi layihələrinin icrası, enerji avadanlıqlarının istehsalının təşkilində aparıcı yer tutur.

Qeyd edək ki, "China Energy" Dövlət Neft Şirkəti ilə bir neçə ildir ki, sıx əməkdaşlıq edir. Ötən il Bakıda səfərdə olan şirkətin nümayəndə heyəti quruda və dənizdə külək enerjisi ilə bağlı potensialları qiymətləndirərək istehsal komplekslərinə qoşulmağa qərar verib, 2024-cü ilin iyun ayında isə SOCAR-la Əməkdaşlıq Sazişi imzalanıb. Sənədə əsasən, "yaşıl hidrogen" daxil olmaqla bərpa olunan enerji mənbələrinin inkişafı sahəsində birgə işlər həyata keçiriləcək. Ötən gün imzalanan saziş isə şirkətin Xəzərdə Azərbaycana aid sektorda sərmayə cığırı açması üçün əsaslı hüquqi zəmin yaratmaqla, "yaşıl enerji"nin istehsal zəncirinin qurulmasına və enerji dəhlizlərinin inkişafına mühüm töhfə verəcək.

### "Xəzər-Qara dəniz-Avropa" kabelinin çəkilişinə dəstək

Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında imzalanmış digər bir saziş isə Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən Günəş Elektrik Stansiyası layihəsinin həyata keçirilməsini əks etdirir. Həmçinin, "SOCAR Green" ilə "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" şirkətləri arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin həyata keçirilməsi planlaşdırılır. Hər iki saziş olduqca əhatəli və yeni enerji sənayeləşməsinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Xatırladaq ki, "China Datang Corporation Limited" şirkətinin rəhbəri də ötən il Azərbaycanda olub və Energetika Nazirliyində görüşdə rəqəmsal texnologilara sahəsində əlaqələrin inkişaf etdirilməsinə toxunub. Bu şirkət qlobal bazarlarda rəqəmsal texnologiaylar üzrə liderlərdən biri kimi fiberoptik yaşıl kanalların çəkilişində əsas təchizatçılardan hesab olunur. Bu baxımdan Azərbaycandan Avropaya "yaşıl enerji"nin ixracını nəzərdə tutan "Xəzər-Qara dəniz-Avropa" yaşıl kabelinin çəkilişində Çinin adıçəkilən şirkəti investor və texnologiya təminatçısı kimi fəal rol oynaya bilər.

### 160 MVt gücündə Günəş Elektrik Stansiyası

Çinin digər sənaye nəhənglərindən biri olan "PowerChina Resources Limited" şirkəti ilə də Azərbaycan arasında indiyə qədər faydalı tərəfdaşlıq qurulub və birgə məsləhətləşmələr aparılıb. Bu transmilli şirkət rəqəmsal və yaşıl avadanlıqlarının təchizatı, quraşdırılması, təkmilləşdirilməsi, müxtəlif növ müasir texnoloji həllərin tətbiqi sahəsində ixtisaslaşıb. Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında imzalanmış Anlaşma sənədi bu səmərəli əməkdaşlığın uğuru hesab oluna bilər. Sənədə əsasən, ölkəmizdə 160 MVt gücündə Günəş Elektrik Stansiyası layihəsi icra olunacaq. Layihə, həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir. 2028-ci ildə istismara verilməsi planlaşdırılan stansiyada illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.



### "Yaşıl mühəndislik" institutunun yaradılması

Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu ilə Energetika Nazirliyi arasında imzalanan "Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu" da mühüm əhəmiyyət kəsb edir. Bu razılaşma "yaşıl enerji" sektorlarında əhatəli qiymətləndirmə işlərinin aparılmasını nəzərdə tutur. Adıçəkilən institut Asiya və Avropanın bir çox regionlarında texnologiya şirkətlərinə məsləhətlər verir. Elektrik enerjisinin planlaşdırılması və mühəndislik institutunun yaradılması sahəsində bu şirkətin təcrübəsi böyükdür və bu baxımdan Anlaşma Memorandumu təcrübə mübadiləsinin aparılmasında mühüm əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə imzalanmış Azərbaycan-Çin sənədlərinin tərkibində "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında yaşıl və aşağı karbonlu inkişaf əməkdaşlığına dair Anlaşma Memorandumu" da imzalanıb ki, sənəd "yaşıl sektor"da çoxistiqamətli tədbirlərdə birgə iştirakçılığı nəzərdə tutur.

### Çin şirkətləri azad ərazilərdə

Çin şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji layihələrinə də marağı böyükdür. Həmin bölgədə "yaşıl güclərin" potensialının yüksək olması nəzərə alınaraq Çin investorlarının yaşıl layihələrdə təmsil olunması gözlənilir. Çin Beynəlxalq Tədqiqatlar İnstitutunun əməkdaşı Kanq Je bildirib ki, bir müddət əvvəl Şuşada və digər ərazilərdə səfərdə olarkən bu bölgədəki bərpaolunan mənbələri, ələlxüsus da çoxsaylı su elektrik stansiyalarının imkanlarını müşahidə edib. Bu, onda böyük maraq oyadıb və Çin sərmayəçilərinin bu sahəyə gəlişi üçün instututun təşviqedici imkanlarından istifadə etmək niyyətindədir. Eyni zamanda, rəqəmsallaşma və "yaşıl tikinti" layihələrinin həyata keçirilməsində geniş təcrübəyə malik Çin şirkətlərinin bu bölgəyə axını üçün təşəbbüslər göstərəcəyini xatırladıb.

Həmçinin, Çin şirkətləri işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının inkişaf etdirilməsinə, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında da iştirak etmək imkanlarını artırmaq niyyətindədir. Zəngilan və Ağdamda inaş edilən infrastrukturlarda Çin texnologiyalarından geniş istifadə edilir və yaradılmış əlverişli şərait çinli iş adamlarını burada günəş elektrik stansiyası və digər infrastruktur obyektlərini icra etməyə həvəsləndirir. Bu isə prosesə cəlb olunmuş Çin şirkətlərinin Qarabağın investisiya quruculuğunda iştirakının genişlənməsindən xəbər verir.

**ELBRUS CƏFƏRLİ**

# Azərbaycan-Türkiyə-Pakistan birliyi güclənir

**Pakistan İslam Respublikası Azərbaycanla Türkiyə üçün dost və qardaş ölkə hesab olunur. Uzun illərdir ki, ölkələrimiz həm ikitərəfli, həm də müxtəlif platformalar çərçivəsində fəal əməkdaşlıq edirlər. Aprelin 22-də Pakistanın Baş naziri Şahbaz Şərifin Türkiyəyə səfəri və səfər zamanı verilən bəyanatlar bu reallığı təsdiqləyir.**

## Türkiyə və Pakistan terrorla fəal mübarizə aparır

Liderlərin birgə mətbuat konfransında Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə ilə Pakistan arasındakı əməkdaşlıq bölgədə sülhə mühüm töhfə verir: "Qardaş ölkə ilə əlaqələrin inkişafında maraqlıyıq. Xüsusilə hərbi və müdafiə sənayesi sahələrində birgə layihələr bizim üçün böyük əhəmiyyət kəsb edir". Fevral ayında Pakistana səfəri zamanı bir çox sahə üzrə 25 sənədin imzalandığını xatırladan Türkiyə Prezidenti deyib: "Qəbul etdiyimiz qərarların qısa müddətdə həyata keçirilməsi vacibdir. İnvestorlarımızı Pakistanda daha çox iş görməyə təşviq edirik". Onun sözlərinə görə, Şahbaz Şərif ilə danışıqlar zamanı Pakistanda fəaliyyət göstərən türk şirkətləri üçün azad iqtisadi zonaların ayrılması məsələsi də müzakirə predmeti olub.

Ərdoğan qeyd edib ki, Türkiyə və Pakistan terrorla mübarizədə ciddi iradə ortaya qoyub. O, həmçinin söyləyib ki, iki dövlət hərbi və müdafiə sahəsindəki əlaqələrini daha da gücləndirəcək, ortaq layihələr ortaya qoyacaq: "Türkiyə ilə Pakistan arasındakı əməkdaşlıq, şübhəsiz ki, bölgələrimizdə sülh və sabitliyə mühüm töhfə verir. Demək olar, bütün məsələlərdə Pakistanla tam koordinasiyalı hərəkət edirik". Türkiyə lideri, baş vermiş terror aktı ilə əlaqədar Pakistana başsağlığı da verib: "Terrorun bütün formaları ilə mübarizədə Pakistana dəstəyimiz davam edəcək".



## Şahbaz Şərif: Ərdoğan böyük və cəsur liderdir

Pakistanın Baş naziri öz növbəsində Türkiyə Prezidentinin uğurlu siyasətinə diqqət çəkərək, "Ərdoğan böyük və cəsur liderdir" deyə vurğulayıb. O, bildirib ki, böyük lideri yaxşı liderdən fərqləndirən əsas xüsusiyyət cəsarətdir: "Böyük lider həm də insanların ürəyini fəth etməyi bacarmalıdır". Baş nazir Türkiyə liderinin bunu bacardığına diqqət çəkib. Şahbaz Şərif güclü iqtisadiyyata çevrilən Türkiyənin, eyni zamanda, böyük diplomatik təsirə malik olduğunu qeyd edib.

ölkənin xüsusi təyinatlı qüvvələrinin "Üç Qardaş" birgə beynəlxalq təlimi də buna əyani sübutdur.

Beləliklə, yeni geosiyasi münasibətlərin formalaş-

## Ərdoğan: Türkiyə, Pakistan, Azərbaycan və digər türk dövlətləri birgə əməkdaşlıq çərçivəsində addımlar atacaq

Mətbuat konfransında xüsusi diqqət çəkən məqamlardan biri isə Türkiyə Prezidentinin Azərbaycanla bağlı söylədiyi fikirlərdir. Ərdoğan qeyd edib ki, Türkiyə, Pakistan, Azərbaycan və digər türk dövlətləri birgə əməkdaşlıq çərçivəsində addımlar atacaq.

Məlumdur ki, Azərbaycanın hər iki ölkə ilə əlaqələri yüksək səviyyədədir. Eləcə də hər üç ölkə üçtərəfli platforma çərçivəsində önəmli tədbirlər həyata keçirirlər. Bu mənada, üçtərəfli görüşlər ənənə halını alıb. Liderlər arasında ötən il iyulun 3-də Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 24-cü iclası çərçivəsində baş tutan belə bir görüş xüsusi vurğulanmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şərif arasında keçirilən üçtərəfli zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan arasında münasibətlər, həmçinin Qəzza, Kipr, Kəşmir, islamofobiya kimi regional və qlobal məsələlər müzakirə olunub.

Daha öncə Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində parlament spikerləri və xarici işlər nazirləri səviyyəsində keçirilmiş görüşlərin həmçinin dövlət başçıları səviyyəsində təşkili nəzərdə tutulub. Habelə, üç ölkə arasında əməkdaşlıq imkanlarını inkişaf etdirmək üçün ortaq niyyət təsdiqlənib. Azərbaycan-Türkiyə-Pakistan arasında üçtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyinə dair razılıq ifadə olunub.

## Üçtərəfli platforma çərçivəsində fəal əməkdaşlıq davam edir

Görüşdə üç ölkənin liderləri suverenlik və ərazi bütövlüyü prinsiplərinə uyğun olaraq münaqişələrin həllində müvafiq ölkələr arasında dialoqun prioritetləşdirilməsini dəstəklədiklərini bildiriblər. Transmilli təhdidlərə, xüsusilə terrorizmə qarşı mübarizədə üç ölkə arasında əməkdaşlığın və bu məsələnin birgə həllinin vacibliyi də bir daha təsdiqlənib.

Həmin görüşdə üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində növbəti görüşlərin hər üç ölkədə, yəni Azərbaycan, Türkiyə və Pakistanda keçirilməsi qərara alınıb.

Digər sahələrlə yanaşı təhlükəsizlik və hərbi sahədə əməkdaşlıq da Azərbaycan, Türkiyə və Pakistan münasibətlərində xüsusi yer tutur. Son illər hər üç ölkənin müvafiq qurumlarının yüksəksəviyyəli rəsmiləri bir neçə dəfə görüşərək aktual müzakirələr aparıblar. Azərbaycan, Türkiyə və Pakistanın birgə hərbi təlimlər keçirmələri də hərbi əməkdaşlığın əyani nümunəsidir və üç

dığı hazırkı zamanda üç dövlətin maraqlarını bir daha uzlaşdırması, münasibətlərin fərqli konturlar üzrə təmərküzləşdirilməsi vacib şərt kimi meydana çıxır. Türkiyə, Pakistan və Azərbaycanın strateji müttəfiqliyi regional inkişafın yeni mərhələsində aparıcı güc mərkəzi kimi çıxış edir. Bu güc mərkəzi isə öz növbəsində təhlükəsizlik, inkişaf və tərəfdaşlığın yüksəlməsinə töhfələr verir.

***Nardar BAYRAMLI***

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

**Mərkəzi Bank (MB) uçot dərəcələri ilə bağlı növbəti qərarını açıqlayıb. MB İdarə Heyətinin aprelin 23-də qəbul etdiyi qərara əsasən, uçot stavkası dərəcələri sabit saxlanılıb. Belə ki, uçot dərəcəsi 7,25 faiz, dəhlizin aşağı həddi 6,25 faiz, yuxarı həddi isə 8,25 faiz səviyyəsində dəyişməz qalıb. Faiz dəhlizi ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə (4+2 faiz) müqayisəsi, qlobal iqtisadiyyatda və maliyyə bazarlarındakı vəziyyət, ölkədaxili makroiqtisadi meyillərin təhlili və pul siyasəti qərarlarının real sektora ötürücülüyü nəzərə alınmaqla qəbul olunub.**

**MB faiz qərarını qəbul edərkən bir neçə ssenarini əsas götürüb ki, onların sırasında inflyasiya amili ilk yerdə dayanır. Belə ki, MB-nin ötən iclasda, yəni martın 12-də verdiyi qərardan sonrakı 40 gün müddətində aylıq inflyasiya hədəf diapazonu daxilində qalıb. Belə ki, 2025-ci ilin mart ayında 12 aylıq inflyasiya 5,9 faiz olub ki, bu da inflyasiya proqnozuna uyğun dinamikadır. Bu dövrdə illik qiymət artımı ərzaq malları üzrə 6,5 faiz, qeyri-ərzaq malları üzrə 2,8 faiz, xidmətlər üzrə isə 7,5 faiz civarında olub. İllik baza inflyasiya isə 4,5 faiz təşkil edib. Ərzaq və qeyri-ərzaq inflyasiyasının sabit qalması ümumi inflyasiyanın hədəfdə qalmasını dəstəkləyən əsas amillərdən biri olub. Nəticədə faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə müqayisəsi, qiymət indeksi amillərinin dinamikası və risk balansının qiymətləndirilməsi nəzərə alınmaqla yekun faiz qərarı verilib.**

Uçot dərəcələrinin müəyyənləşməsində xüsusi rol oynayan inflyasiyanın mövcud çərçivəsinin formalaşmasına bir neçə amil ciddi təsir göstərir ki, başlıca fundamental faktor kimi xarici mühiti qeyd etmək olar. Cari ilin ilk rübündə idxal inflyasiyası da təhdidedici xarakter daşımayıb. Son aylarda inflyasiyaya təsir edən xarici amillərdə dəyişkənlik artıb. Beynəlxalq Valyuta Fondunun məlumatına görə 2025-ci ilin martında əmtəə qiymətləri indeksi aylıq 2,7 faiz azalıb, illik isə 2,6 faiz artıb.

Ötən müddətdə Azərbaycanın tədiyə balansının da vəziyyəti qənaətbəxş olub. Xarici ticarət balansında əhəmiyyətli həcmdə müsbət saldo qeydə alınıb. Ticarət tərəfdaşlarının orta çəkili illik inflyasiyası cari ilin martında ötən ilin eyni ayına nəzərən 9,6 faiz olub. Manatın qeyri-neft-qaz sektoru üzrə nominal effektiv məzənnəsi 2025-ci ilin mart ayında ötən ilin eyni ayı ilə müqayisədə 1,8 faiz möhkəmlənib. Bütün bunlar onu təsdiqləyir ki, xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Bu amil həm

inflyasiya, həm də manatın sabit məzənnəsinin qorunmasında, valyuta tələbi ilə bağlı riskləri neytrallaşdırmaqda əhəmiyyətli amil kimi rolunu möhkəmləndirir. Son qiymətləndirmələrə görə də 2025-ci ilin yekunu üzrə tədiyə balansının cari hesabının profisitli olacağı proqnozlaşdırılır.

Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumları bu prosesə cəlb edəcək. MB-nin açıqlamasından görünür ki, inflyasiyanın risk balansında əhəmiyyətli dəyişikliklər baş verməsə də, potensial olaraq inflyasiya təzyiqləri yarada biləcək qlobal iqtisadi qeyri-müəyyənliklər yenə də qalır. Mövcud geosiyasi gərginlik fonunda beynəlxalq əmtəə bazarlarında qiymətlərin mümkün dəyişkən-

rinin

miqyasının

MB

hesab edir ki,

ticarət müharibələ

## İnflyasiya sabit qalıb




liyi idxal inflyasiyasının artımı ilə bağlı risklər yaradır.

cı

illər üzrə inflyasiya proqnozlarında daxili amillərin payı aşağı qiymətləndirilir. Ümumilikdə, mövcud pul siyasəti inflyasiyanın hədəf daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Belə ki, bu ilin aprel ayında yenilənmiş proqnozlara görə illik inflyasiyanın cari ildə 5,3 faiz, 2026-cı ildə 4,3 faiz ətrafında olacağı gözlənilir.

Mərkəzi Bank faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarını faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı ola-

## Ticarət müharibələri qiymətləri artıra bilər

böyüməsi və geosiyasi gərginliyin davam etməsi beynəlxalq əmtəə bazarlarında qiymətlərin dəyişkənliyini daha da artırır. Qarşılıqlı tarif artımları qlobal ticarəti zəiflətməklə yanaşı, maliyyə bazarlarında da qeyri-sabitlik riskini yüksəldir. İnflyasiyanı artıra biləcək daxili risk faktorları kimi isə xərc amilləri və məcmu tələbin izafi artımı qeyd oluna bilər. Bu amilləri nəzərə alaraq MB anti-inflyasiya tədbirlərinə dəstəyini davam etdirəcək, eyni zamanda, inflyasiyanın hədəf diapazonu daxilində saxlanılması və inflyasiya gözləntilərinin sabitləşdirilməsi üçün hökumətlə koordinasiyanı alı şəkildə fəaliyyətini davam etdirəcək.

Ümumilikdə, 2025-2026-

raq verəcək. Növbəti qərarın 2025-ci il iyun ayının 11-də ictimaiyyətə açıqlanacağı nəzərdə tutulur.

***E.CƏFƏRLİ***

# London görüşü niyə baş tutmayıb?



Rusiya-Ukrayna münaqişəsinin nizamlanması prosesi dalana dirənib. Belə demək mümkünsə, Qərb KİV-lərinin, eləcə də Qərb siyasi analitik institutlarının Rusiya ilə Ukrayna arasında yaxın zamanda atəşkəsin elan olunacağı ilə bağlı proqnozları özünü doğrultmayıb. Tramp administrasiyası, Kreml və Zelenski hakimiyyətinin son davranışları Rusiya-Ukrayna müharibəsinin hələ bir müddət də davam edəcəyini deməyə əsas verir. Qeyd edək ki, aprelin 23-də Londonda Böyük Britaniya, Fransa, Almaniya və Ukraynanın xarici işlər nazirləri arasında planlaşdırılan görüş baş tutmayıb. "Sky News" telekanalının məlumatına görə, ABŞ Dövlət katibi Marko Rubio Londona səfərdən imtina etdikdən sonra nazirlər görüşü təxirə salıb. Telekanal, həmçinin qeyd edib ki, Ukrayna XİN rəhbəri Andrey Sibiqa Londondadır və onun britaniyalı həmkarı Devid Lemmi ilə görüşü gözlənilir.

**Görüşün baş tutmamasının səbəbi...**

Qərb KİV-lərində London görüşü ilə bağlı yayımlanan məlumatlar xüsusi diqqət çəkir. Belə ki, bir neçə gün öncə "Washington Post" qəzetində dərc olunan məqalədə qeyd olunurdu ki, ABŞ Ukraynanı Krımın Rusiya ərazisi kimi tanımasına təkid edir - əgər Londonda görüş baş tutsa idi, Rubio mümkün sülh sazişinin bir hissəsi kimi bunu Ukraynadan tələb edəcəkdi. Britaniyanın "Independent" qəzeti də eyni fikirləri səsləndirib. Qəzet yazır ki, Vaşinqton Kiyevdən Rusiyanın Krım üzərində nəzarətini qəbul etməsi, Ukraynanın NATO-ya üzvlükdən imtina etməsi və Rusiya ilə dialoqu bərpa etməsini tələb edir. Zelenskinin isə buna münasibəti birmənalı olmayıb - görüşdən əvvəl o, jurnalistlərə açıqlamasında bəyan edib ki, Ukrayna heç bir zaman Krımı Rusiyanın ərazisi kimi tanımayacaq: "Tanınılası heç nə yoxdur - bu, bizim Konstitusiyamıza ziddir. Bu, bizim ərazimizdir, Ukrayna xalqının ərazisidir. Bu, heç vaxt baş tutmayacaq", - deyə Zelenski bildirib. Eyni zamanda, Zelenski vurğulayıb ki, Ukrayna rəsmiləri Tramp administrasiyasının nümayəndələri ilə 30 günlük atəşkəs rejimini müzakirə etməyə niyyətlidir. Onun sözlərinə görə, atəşkəsdən sonra Ukrayna Rusiya ilə istənilən formatda danışıqlar masası arxasına əyləşməyə hazırdır: "Biz atəşkəsdən sonra istənilən formatda danışıqlar masasına oturmağa hazırıq ki, dalana dirənməsin", - deyə Ukrayna lideri əlavə edib. Məhz Zelenskinin bu bəyanatından sonra Rubio Londona nəzərdə tutulan səfərini ləğv edib.

**Vaşinqtonun sülh planında nələr əks olunub?**

Britaniyanın "Daily Telegraph" agentliyi qeyd edir ki, ABŞ Ukrayna münaqişəsinin nizamlanmasına dair yeddi maddədən ibarət plan hazırlayıb. Agentliyin məlumatına görə, planın birinci və ikinci bəndlərində dərhal atəşkəsin elan olunması və Ukrayna ilə Rusiya arasında birbaşa danışıqların başlanması, üçüncü və dördüncü bəndlərdə Ukraynanın NATO-ya üzvlük iddiasından imtina etməsi və Rusiyanın Krım üzərində hüququnun tanınması, beşinci bənddə isə Rusiya tərəfindən nəzarətə götürülmüş ərazilərin de-fakto olaraq Rusiya ərazisi kimi tanınması nəzərdə tutulur. Altıncı bəndə Ukraynanın ABŞ-la faydalı qazıntılara dair sazişin imzalanması ehtiva olunur, yeddinci bəndə gəlincə, bu bənddə Moskva ilə Vaşinqton arasında yeni münasibətlərin qurulması imkanları, xüsusilə də Vaşinqtonun Rusiyaya qarşı bütün sanksiyaların ləğvi və enerji sektorunda iki ölkə arasında əməkdaşlığın bərpası ilə bağlı məsələlər öz əksini tapıb. Bütün bunlarla yanaşı, Vaşinqton bu plan çərçivəsində hazırda Ukraynanın Zaporojye Atom Elektrik Stansiyasının ABŞ-ın nəzarətinə keçməsində israrlıdır.

**Vaşinqton nəyə görə Ukraynaya təzyiqlər edir?**

Bir çox siyasi ekspertlər hesab edirlər ki, Ağ Evin Ukraynaya təzyiqlər etməsinin başlıca səbəbi Trampın tez bir zamanda müharibəni bitirmək niyyəti ilə bağlıdır. Onların fikrincə, ABŞ rəhbərinin Rusiya, Yaxın Şərq və strateji cəhətdən əhəmiyyət kəsb edən digər regionlarla bağlı hədəfləri var - Tramp öz hədəflərinə nail olmaq üçün qarşısına məqsəd qoyub. Belə düşünülür ki, Tramp Rusiya ilə Ukrayna arasında müharibəni bitirdikdən sonra Rusiya ilə münasibətlərin bərqərar olunması istiqamətində ciddi addımlar atmaq, xüsusilə Moskva ilə enerji sahəsində böyük layihələr həyata keçirmək niyyətindədir, eyni zamanda, Vaşinqtonun əsas diqqətini Arktika, Yaxın Şərq və Asiya-Sakit okean regionlarına yönəldəcək. Bu baxımdan Tramp iki münaqişə tərəfini qarşılıqlı güzəştlər müqabilində atəşkəsə razı salmaqda israrlıdır.

**Vaşinqton vasitəçilikdən geri çəkilə bilər....**

Tramp Ağ Evdə yerli mediayaya son açıqlamasında bildirib ki, əgər münaqişə tərəflərindən biri danışıqları sabotaj edərsə, ABŞ danışıqlardan çıxacaq və tərəfləri öz taleylərinə buraxacaq. Rubio da NATO-nun Baş katibi Mark Rutte ilə son telefon danışığında bunu təsdiqləyib - o, qeyd edib ki, Ukraynada sülhə gedən aydın yol tezliklə ortaya çıxmasa, ABŞ sülh vasitəçiliyi səylərindən geri çəkiləcək. Tramp və Rubionun xəbərdarlığına baxmayaraq, ekspertlər bunun qeyri-mümkün olduğunu düşünürlər - hesab edirlər ki, ABŞ Rusiya ilə Ukrayna arasında atəşkəs elan olunana qədər münaqişənin nizamlanması istiqamətində səylərini davam etdirəcək.

*Yunis ABDULLAYEV*

# Viran vücuddan qaçış

## Akutaqava Rünoskenin həyatıyla sənətinin qovuşağında

**əvvəli ötən saylarımızda**

Akutaqavanın nisbətən iri həcmli əsərlərindən olan "Cəhənnəm əzabı" (1918) novellasının mövzusu on ikinci əsrdə yazıya alınmış klassik yapon hekayətləri toplusundan götürülüb. Əsər həşəmətli hökmdar əlahəzrət Horikavanın saray qulluqçusunun dilindən nağıl olunur.

Horikava ədalətli, insaflı hakimdir, buna görə cəmi paytaxt əhli ona dərin hörmət-ehtiram bəsləyir, canlı Budda kimi onun sədəsinə durur. Hökmdarın sarayında ustalıqda ad-san çıxarmış rəssamlar var, bunların da ən seçkini Yosihide adlı əlli yaşlarında qaraqabaq, xəsis, tamahkar, vicdansız, tənbəl, dikbaş, yaraşıqda meymuna bənzər kişidir. Bu rəssam o qədər yönsüzdür ki, saray əhli Horikavaya bağışlanmış meymunu da onun adıyla çağırır. Rəssamın qızı o meymuna mehir salıb isinişir.

Yosihidenin bu dünyada iki sevgisi var: biri sənəti, o biri də on beş yaşlı gənc qızıdır. Məbədə nəzir verməyə əli gəlməyən rəssam bir sənətindən, bir də qızından sevgisini əsirgəmir, onlardan ötrü hər fədakarlığa hazırdır - hərçənd onun fədakarlığı özünü yox, başqalarını fəda verməyi nəzərdə tutur. Qız da atasıyla birgə sarayda yaşayır, burada ona da kiçik vəzifə tapşırılıb. Bir dəfə yaxşı işinə görə padşah saray rəssamına ənam vermək istəyəndə Yosihide mükafat əvəzinə Horikavadan qızının qulluqdan azad olunub evə buraxılmasına rüsxət istəyir, ancaq hökmdar buna razılıq vermir. Belə bir ehtimal da var ki, Horikava baş rəssamın qızına aşiq olub.

Yosihidenin rəsmləriylə bağlı qorxunc şayiələr dolaşır: guya onun şəklini çəkdiyi qadınlar tezliklə azarlayıb əzab içində ölürlər, sonra həmin şəkillərdən çürümüş cəsəd qoxusu gəlir; guya bu ustad sənətkarın cadugərlik məharəti də var. Bir dəfə əlahəzrət ondan: "Sən deyəsən eybəcərliyi sevirsən?" - deyə soruşanda Yosihide hökmdara belə cavab verir: "Bəli, bu üzdən gedən rəssamcıqlar eybəcərliyin gözəlliyini anlamazlar!" Mətləbdən uzaqlaşmamış deyək ki, bu obrazın prototiplərindən biri, çox güman, birincisi "Şər çiçəkləri" poetik toplusunun müəllifi, Akutaqavanın ən sevimli şairi, leşdən, çürüntüdən poeziya yaradan dahi Şarl Bodlerdir. Yosihidenin acı xasiyyəti də Bodlerin qəliz xarakterindən geri qalmır, o da uzaq Fransadakı orijinalı kimi sənətiylə İblisə səcdə qılır.

Rəsmlərində təsvir elədiyi ağrı-acılar, vahimələr, iztirablar, işgəncələr təbii çıxsın deyə Yosihide tez-tez öz şagirdləri üzərində eksperimentlər aparır, onlara əzab-əziyyət verir, onları müdhiş situasiyalara salır. Ancaq bu əməlləri onun vicdanını zərrə qədər incitmir, çünki ondan ötrü sənət insan həyatından min qat qiymətlidir, başqa sözlə, "insan ömrü Bodlerin bir misrasına dəyməz".

Günün birində əlahəzrət Horikava saray rəssamı Yosihideyə cəhənnəm əzabını əks elətdirən bir rəsm əsəri çəkməyi tapşırır. Yosihide işin çox hissəsini görür, həlledici məqama çatanda hökmdarın hüzuruna gedib deyir ki, daha bundan sonrasını çəkməyə gücü-qüdrəti yoxdur. Horikava səbəbini soruşanda rəssam fikrinə belə izah verir ki, görmədiyi bir halı, vəziyyəti fırçasıyla yarada bilməz: o heç vaxt cəhənnəmdə olmayıb, oranın əzablarını dadmayıb. Hökmdar ondan harada ilişib qaldığını xəbər alanda Yosihide uçurumdan aşan kareta şəkli çəkməyə çalışdığını deyir: "Karetanın içində qara saçına od düşmüş zərif saray xanımı əzab içində qıvrılır. Qaşları çatılmış bu qadın tüstüdən boğulmamaq üçün başını pəncərədən çölə çıxarır. Üstünə yağan qığılcım yağışından qorunsun deyə qadın dartıb bambuk pərdəni qoparır. Onlarla yırtıcı quş dimdiyini şaqqıldada-şaqqıldada onun başı üstündə dövrə vurur... Bax, bu mənzərəni heç cür təsvir eləyə bilmirəm".

Gecələrin birində əlahəzrət Horikava rəssam Yosihide üçün belə bir tamaşa təşkil eləyir. Son məqamda Yosihide məşəl işığında görür ki, karetanın içindəki zəncirə vurulmuş qadın onun doğma qızıdır. Sənətlə həyat arasında qalan rəssam arzuladığı cəhənnəmi canlı-canlı yaşayır. Kareta od alanda Yosihide irəli atılıb qızını qurtarmaq istəsə də, qatı tüstü-dumanı yara bilmir. Əvəzində meymun adaşı alovun içinə sıçrayıb sevimli bacılığıyla birgə külə çıxır...

Bu əhvalatla bağlı cürbəcür şayiələr dolaşır: kimi deyir əlahəzrət Horikava rəssamın qarşılıqsız sevgisinin qisasını alıb, kimi də deyir adil hökmdar öz işi naminə insanların meyidi üstündən keçməyə hazır olan sənətkara dərs verib (yenə karma məsələsi). Bu versiyaların heç biri təkzib olunmur, ancaq əsərdə açıq səslənməyən üçüncü versiya daha ağlabatandır: çox güman, sənət, gözəllik aşiqi mərhəmətli hökmdar bu qanlı tamaşanı rəsmin daha təsirli alınması xatirinə qurub, Yosihideyə cəhənnəm əzabını yaşatmaqla misilsiz sənət nümunəsinin yaranmasına ilham verib. Hər nədirsə, rəssam işini yarımçıq qoymur, bir ayın tamamında qeyri-adi rəsm əsəri hazır olur.

Rəsmi əlahəzrətə təhvil verdiyinin ertəsi günü Yosihide özünü asır. Bir müddət sonra onun məzarını ot-alaf basır, bilinmir ki, o məzarda yatan kimdir. Əlbəttə, sənətkarın fani cismi onun baqi ruhunun yaratdığı şedevrin qarşılığında bir saman çöpündən də dəyərsizdir. "İnsan ömrü Bodlerin bir mirasına dəyməz".

Akutaqavaya görə, həyat öləri, incəsənət yaşarıdır. Gerçək sənət əsəri yaradan kəsə hər yaramazlığı bağışlamaq, hər suçu keçmək olar. Estetika etikadan, sənət əxlaqdan ucadır. Gözəllik xeyirxahlıqla dost olmaya da bilər. Ruh vicdandan, ədalətdən, mərhəmətdən nəsibini almaya da bilər, çün vicdan da, ədalət də, mərhəmət də şüurun, idrakın icadı deyil, sinirə bağlı fenomenlər, əsəblərin ətraf aləmə reaksiyasıdır. "Mənim vicdanım yoxdur, mənim ancaq sinirlərim, əsəblərim var", - "Tənhalıq cəhənnəmi"ndə fələyin "Dişli çarxlar"na ilişib "İdiot həyatı" yaşayan, özüylə "Zülmətdə dialoq" aparan ümidsiz, yalqız Rünoske belə deyirdi...

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# Yelisey Sarayı Yeni Kaledoniyanın bayrağından niyə qorxur?

*Mübariz FEYİZLİ*

Təxminən 500 illik müstəmləkəçilik tarixinə malik olan Fransa XXI əsrdə də yeni sivil dünya çağırışlarına məhəl qoymayaraq Afrikada, dənizaşırı ərazilərdə heç bir vəchlə sümürmə siyasətindən əl çəkmək istəmir. Əksinə, Yelisey Sarayı hələ də öz nəzarətində saxladığı müstəmləkə ərazilərində daha sərt kolonializm metodlarına keçid edir və bundan ötrü daha mühafizəkar hüquqi baza formalaşdırmağa çalışır.

Fransanın son dərəcə ağır şərtlər altında davam etdirdiyi müstəmləkəçilik siyasətinin bütün ikrah doğuran təzahürlərini Yeni Kaledoniyanın timsalında görmək mümkündür. Rəsmi Paris bu günlərdə növbəti dəfə ada sakinlərinin hüquq və azadlıqlarının pozulmasına rəvac verib.

**Sürücülük vəsiqələrində milli bayraq qalmaqalı böyüyür**

Söhbət Yeni Kaledoniyada sürücülük vəsiqələrində müstəqillik tərəfdarlarının (FLNKS) bayrağının yer alması ilə bağlı qalmaqalın böyüməsindən gedir. Məsələ ondadır ki, Yeni Kaledoniyada sürücülərə verilən vəsiqələrin üzərində Fransa bayrağı ilə yanaşı, milli bayraq da əks olunub. Rəsmi Paris buna qarşı çıxır, Yeni Kaledoniyanın hakimiyyət orqanları isə sürücülük vəsiqələrində milli bayrağın yerləşdirilməsində israrlı yanaşma ortaya qoyurlar.

Bayraq qalmaqalı artıq məhkəmə instansiyalarına qədər uzanıb. Yelisey Sarayı siyasi sifarişlər verməklə yerli bayrağın götürülməsi ilə bağlı iki məhkəmə qərarının çıxarılmasına nail olub. İlk qərar "Generations NC" siyasi partiyasının təşəbbüsü əsasında 2024-cü ilin iyul ayında Noumea Administrativ Məhkəməsi tərəfindən verilib. Qərarın icrasına başlanmadığı təqdirdə 2025-ci il yanvarın 1-dən etibarən hər gecikmə günü üçün 100000 CFP frank (Yeni Kaledoniya Frankı) cərimə nəzərdə tutulub. Bu qərar 2025-ci ilin fevralında Paris Administrativ Apellyasiya Məhkəməsi tərəfindən də təsdiqlənib. Lakin qərar qüvvəyə minsə də, Yeni Kaledoniya hökuməti onun icrasını hüquqi öhdəlik kimi qəbul etmir. Eyni zamanda, müvafiq yerli icra orqanı olan - DITTT sürücülük vəsiqələrinin dizaynında dəyişiklik aparmaqdan boyun qaçırır. Rəsmi Parisin yerli icra orqanlarına ünvanlanmış müraciətləri də cavabsız qalıb.

Həmçinin məhkəmə qərarının icrasına dair sübutedici sənədlər də təqdim olunmayıb. Bunun nəticəsi olaraq, 1-ci instansiya məhkəməsi ilkin cərimə məbləğini müəyyənləşdirib və Yeni Kaledoniya hökumətinin dövlət büdcəsinə 10 milyon CFP frank və "Generations NC" partiyasına hüquqi məsrəflərinin ödənilməsi üçün 700 000 frank verməsinə dair qərar çıxarıb. Məhkəmə daha sonra hökumətin qeyri-müəyyən mövqeyini nəzərə alaraq cəriməni hər gecikmə günü üçün 150 000 CFP franka qaldırıb. İnzibati məhkəmənin sədri hökumət başçısı Alkide Pongaya məktub göndərib. Məktub cavabsız qalıb.



**Rəsmi Paris təzyiq ssenarisini təkrarlayır**

Fransa missionerlərinin Yeni Kaledoniyaya ayaq açması XIX əsrin ortalarına təsadüf edir. Missionerlərin adaya gəlişi ilə yerli sakinlərin qara günləri başlayıb. 1853-cü ildə isə Fransa adanı özünün müstəmləkəsi elan edib. Ada sakinləri ötən əsrin 80-ci illərindən etibarən Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etirazlara başlayıblar. Onların yeganə məqsədi Fransanın sərhəd tanımayan zülmündən birdəfəlik qurtulmaqdır.

Yelisey Sarayı indiyədək kanak xalqının azadlıq istəyinin qarşısını ən qəddar vasitələrlə alıb. Ötən il Yeni Kaledoniyada baş verənlər buna ən son nümunələrdən biridir. Məlumdur ki, 2024-cü ildə Makron iqtidarı Yeni Kaledoniyada mürtəce siyasətinin davamı olaraq bədnam "konstitusiya islahatları"nın layihəsini parlamentin müzakirələrinə çıxarmağa nail oldu. Əslində, Makronun məcburiyyət qarşısında qalaraq müvəqqəti dayandırdığı "islahatlar" Fransanın xəbis niyyətlərindən xəbər verir. Bu dəyişikliklərin yeganə məqsədi Yeni Kaledoniyada aborigen xalqın hüquqlarını məhdudlaşdırmaq, bunun əksinə olaraq gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Makron iqtidarı düşünür ki, kanak xalqının mövqelərini zəifləmək üçün gəlmələrə hüquqi müstəvidə yeni imkanlar açılmalıdır. Bu dəfə söhbət onların seçki hüquqlarının tanınmasından gedir. Səsvermə sisteminin dəyişdirilməsi ilə bağlı Fransa parlamentinin müzakirəsinə çıxarılan qanun layihəsinə görə, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları əyalət seçkilərində səs verə biləcəklər. Fransa hakimiyyətinin Yeni Kaledoniyada gəlmələrin seçki hüquqlarını genişləndirmək planı çox doğru olaraq elektoratın tərkibini dəyişmək hədəfi anlamında qəbul olunur. Bu isə adanın 270 min əhalisinin təxminən 40 faizini təşkil edən yerli kanak xalqının mənafeyinə ziddir. Buna görə də kanaklar müvafiq qanunun qəbul ediləcəyi təqdirdə öz tarixi vətənlərində ikinci dərəcəli etnik qrupa çevriləcəklərini düşünürlər və bunun qarşısını almaq üçün bir nəfər kimi ayağa qalxdılar.

Yenə Yelisey Sarayının güc tətbiq etmək ssenarisi işə düşüb. Belə ki, ötən ilin may ayında Yeni Kaledoniyada Fransa müstəmləkəçiliyinə qarşı etirazlarda çoxsaylı qətllər törədilib, 200 nəfərdən çox şəxs saxlanılıb. Baş verən iğtişaşlar nəticəsində dəymiş ziyan ilkin olaraq 150 milyon avro həcmində qiymətləndirilib. Fransa Sahibkarlar Hərəkatının (MEDEF) regional bölməsinin rəhbəri Mimsi Dali bildirib ki, iğtişaşlar region iqtisadiyyatı üçün fəlakətli nəticələrə səbəb ola bilər. İş o yerə çatmışdı ki, Fransa hakimiyyəti davam edən etirazlar səbəbindən dəniz limanlarını və aeroportları qorumaq adı altında Yeni Kaledoniyaya ordu yeritmək məcburiyyətində qaldı. Hətta ada dövlətində "TikTok" sosial şəbəkəsinin fəaliyyəti dayandırıldı.

Bütün bunlar demokratiyadan, insan hüquqlarından danışan Yelisey Sarayının, əslində, son dərəcə mühafizəkar siyasət apardığını əyani şəkildə təsdiqləyir. Hələ də sümürmə siyasətinə sadiqlik göstərən rəsmi Paris müstəmləkə ərazilərində xalqların azadlıq istəklərinin ən kiçik işartılarını belə həzm edə bilmir. Yelisey Sarayının böyütdüyü bayraq qalmaqalı da çox doğru olaraq rəsmi Parisin təzyiq ssenarisini təkrarlaması anlamında dəyərləndirilir. Belə görünür ki, Makron iqtidarı bu ölkədə aborigen sakinlərin azadlıq, müstəqillik arzularını elə beşikdəcə boğmağa nail olmaq üçün ən çirkin vasitələrə əl atmaqdan belə çəkinmir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Mühüm səfər...

## DİDK nümayəndə heyəti Gürcüstanda

Ölkəmizin beynəlxalq aləmə inteqrasiyası onun qonşu dövlətlərlə əlaqələrinə də müsbət təsir göstərib. Bu gün Azərbaycan-Gürcüstan əlaqələri yeni bir mərhələyə daxil olub. Azərbaycanla Gürcüstanı təkcə iqtisadi amillər deyil, həm də tarixi köklər birləşdirir. Hər iki ölkə arasındakı dostluğun qədim tarixi var. Hər iki ölkə bir-birinin mövqeyini daim dəstəkləyir. Azərbaycan daim Gürcüstana dəstək göstərib, Gürcüstan da beynəlxalq platformalarda ölkəmizin haqlı mövqeyini müdafiə edib.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədr müavini Vaqif Seyidbəyovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfər edib. DİDK nümayəndə heyəti və Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları Tbilisi şəhərindəki Heydər Əliyevin adına parkda Ulu Öndərin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.

## Heydər Əliyevin Gürcüstandakı soydaşlarımıza qayğısı!

Laqodexi rayonunda fəaliyyət göstərən "Qabal İnkişaf Mərkəzi"nin müəllim və tələbələri Tbilisi şəhərində Heydər Əliyevin adını daşıyan parkdakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Mərkəzin rəhbəri Yavər Məmmədov bildirib ki, təkcə "Qabal İnkişaf Mərkəzi"nin müəllim və tələbələri deyil, bütün dünya bilir ki, müasir Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır: "Ümummilli Liderin respublikaya rəhbərlik etdiyi ilk illərdən etibarən Azərbaycanın gələcək inkişaf strategiyası ilə bağlı mühüm addımlar atılıb. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan xalqı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxıb. Azərbaycanı məhv olmaqdan qurtararaq işıqlı sabaha çıxaran, dövlətin ideoloji-siyasi əsaslarını yaradan Ümummilli Liderin mənalı ömür yolunun hər anı bugünkü və gələcək nəsillər üçün unudulmaz tarixdir".

Onun sözlərinə görə, dünyaşöhrətli siyasi xadimin Gürcüstana və bu ölkədə yaşayan soydaşlarımıza da xüsusi diqqət və qayğısı olub. Məhz onun əsasını qoyduğu siyasi xəttə uyğun olaraq iki ölkə arasında əlaqələr sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Dahi şəxsiyyətin əziz xatirəsi Gürcüstanda yaşayan soydaşlarımızın qəlbində daim yaşayacaq.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə hazırlanmışdır**


## Axundzadənin Tbilisidəki xatirə muzeyi

Sonra Mərkəzin tələbələri Tbilisidəki Mirzə Fətəli Axundzadənin ev-muzeyi ilə tanış olublar. Bildirilib ki, ömrünün əsas hissəsini Gürcüstanda keçirən M.F.Axundzadənin Tbilisi şəhərindəki evində xatirə muzeyi 1982-ci ildən fəaliyyət göstərir. 2007-ci ildə Gürcüstan Prezidentinin Sərəncamına əsasən, ev-muzeyə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilib. 2013-cü ildə Azərbaycan Respublikasının vəsaiti hesabına muzeydə əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. 2013-cü il may ayının 8-də keçirilmiş rəsmi açılış mərasimində Gürcüstanın Baş naziri və digər rəsmi şəxslər iştirak ediblər. Hazırda muzeyin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyət göstərir.



## Tbilisidə yeganə Azərbaycandilli kitabxana

Qeyd olunub ki, muzeyin ekspozisiya hissəsi altı zaldan ibarətdir. Zallarda dramaturqun həyatına aid müxtəlif əşyalar və xatirələri əks etdirən fotolar var. Muzeyin altı zalından biri qədim və zəngin Azərbaycan mədəniyyətinə, ikincisi Azərbaycan və Gürcüstan dostluğuna həsr olunub. Otaqlardan biri M.F.Axundzadənin iş otağı kimi qorunub saxlanılır. Orada onun şəxsi əşyaları, o cümlədən yazı masası, kitab dolabı, divar saatı və çıraq var. Həmin otaqda M.F.Axundzadənin müxtəlif dillərdə nəşr edilmiş əsərlərinin üz qabıqlarının surətləri nümayiş etdirilir. Muzeydə Tbilisi şəhərində yeganə olan Azərbaycandilli kitabxana fəaliyyət göstərir.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyini ziyarət edən nümayəndə heyətinin, həmçinin Marneuli, Bolnisi, Dmanisidə rayon rəhbərliyi, eləcə də bu rayonlarda fəaliyyət göstərən icma mərkəzlərində görüşlər keçiriblər. Nümayəndə heyətinin üzvlərinin Rustavi, Saqareco və Qardabani rayonlarında fəaliyyət göstərən icma mərkəzləri və adıçəkilən rayonların rəhbərliyi ilə də görüşlərinin keçirilməsi nəzərdə tutulur.

***Yeganə***

# Gələcəyin peşələri!

## Peşə seçimində nələrə diqqət edilməlidir?

## Süni intellekt əmək bazarına təsir edib...

Texnologiyaların və süni intellektin sürətli inkişafı əmək bazarında əsaslı dəyişikliklərlə nəticələnməkdədir. Belə ki, avtomatlaşdırma, robotlaşma və rəqəmsal transformasiya ilə yanaşı, istehlakçı vərdişlərinin də dəyişməsi bir çox ənənəvi peşələrin tədricən tənəzzülünə gətirib çıxarıb. İnsan əməyinin texnologiya ilə əvəzlənməsi prosesi gün keçdikcə sürətlənir.

Məhz bu prosesin təsiri nəticəsində tənəzzülə uğrayan peşələrin əvəzində yeni, müasir və texnologiyaya əsaslanan peşələr meydana çıxmaqdadır. İnsanların müasir texnologiyaya adaptasiyası və əmək bazarında baş verən dəyişikliklər artıq peşə seçiminə yeni yanaşmalar tələb edir.

## Bank əməkdaşlarına tələbat azalır...

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən sosioloq Üzeyir Şəfiyev bildirib ki, əmək bazarında baş verən dəyişikliklərin təsir göstərdiyi peşə sahələrində bankları xüsusilə qeyd etmək olar. Sosioloqun sözlərinə görə, bank əməliyyatlarının rəqəmsallaşması nəticəsində ənənəvi bank əməkdaşlarına olan tələbatın azalmasını göstərmək olar: "Məhz bu səbəbdən mobil bankçılıq, onlayn ödəniş sistemləri və bankomatlar banklarda bu sahələr üzrə çalışan işçilərin sayının azalmasına təsirini göstərir. Bununla yanaşı, elektron poçt ünvanları və sosial media platformaları sayəsində artıq insanlar məktublara ehtiyac duymurlar. Beləliklə, poçtalyon xidməti, demək olar ki, artıq tarixə qovuşub. Belə tendensiya ilə əlaqədar olaraq bir çox şirkətin satış və müştəri xidmətləri sahəsindəki operatorlara olan tələbatı azalıb. Çünki artıq onların gördükləri işi süni intellektli cavablandırma sistemləri həyata keçirə bilir".




## Sürücülük peşəsi risk altındadır!

Kənd təsərrüfatı sahəsində insan əməyinin texnologiya ilə əvəzlənməsinin uzun illər bundan əvvəl başladığını bildirən sosioloq günümüzdə bu durumun daha intensiv hal aldığını vurğulayıb: "Ölkəmizdə o qədər geniş yayılmasa da, digər dövlətlərdə aqrotexnologiya, demək olar ki, insan əməyini minimuma endirib. Gələcəyi risk altında olan digər bir peşə isə sürücülükdür. Bəzi xarici ölkələrdə artıq sürücüsüz taksilər fəaliyyət göstərir və bu proses geniş miqyas alaraq ənənəvi sürücülük peşəsinin azalmasına səbəb ola bilər".

## İT yeni peşələrin yaranmasına da imkan verir...

Sosioloq qeyd edib ki, sadalanan bu peşələr tənəzzülə uğrayan peşələrin sadəcə, bir qismidir, bunlarla yanaşı, istər təsərrüfatda, istərsə də istehsalatın bir çox sahəsində insan əməyi artıq robot texnologiyaları ilə əvəzlənib. Bütün bu dəyişikliklərə baxmayaraq, informasiya texnologiyalarının (İT) inkişafı yeni və perspektivli peşələrin yaranmasına da imkan verir: "Buna misal olaraq süni intellekt və data analitikası mütəxəssisləri gələcəyin ən vacib peşələri arasında yer alır. Məlumatların təhlili və AI əsaslı sistemlərin inkişaf etdirilməsi müasir bizneslər üçün həyati əhəmiyyət daşıyır".

## Gəlir hər peşədə var, amma...

Hansı ixtisası, peşəni seçsələr də, daha çox gəlir əldə etmək bu gün bütün dünyadakı gənclərin marağındadır. Bu, bir az nisbi anlayış olsa da, etiraf edək ki, bütün zamanların özünəməxsus "pullu" peşəsi var.

Karyera üzrə mütəxəssis Toğrul Ələkbər qəzetimizə açıqlamasında gəlirli peşələrdən danışıb. Ekspertin sözlərinə görə, gəlir hər peşədə var, sadəcə, "gəlirə daha tez necə çatmaq olar?" sualı maraq doğurur: "Burada tələb-təklif məsələsinə də diqqət yetirməliyik. Yəni tələbat və kadr çatışmazlığı olan sahələrdə gəlir daha çox olur. Lakin bu, müvəqqəti ola bilər. Məsələn, koreya dili tərcüməçisi 3000 AZN qazana bilər, çünki onun bazarda rəqibi yoxdur. Ancaq rəqiblər artdıqca, xidmət göstərənlər artır və bu da bazardakı qiymətlərə təsir göstərir.

## Gələcəkdə sağlamlıq sektoru xüsusi yer tutacaq

T.Ələkbər gəlirli peşələrdə sağlamlıq sektorunun xüsusi yer tutduğunu bildirib: "Gəlirli peşələr texnologiyanı özündə əks etdirir. İlk olaraq bir neçə istiqaməti - mühəndislik, kompüter və proqramlaşdırma, eyni zamanda təəccüblü olsa da həkimlik və sağlamlıq sahələrini əhatə edir. Sağlamlıq sahəsini xüsusilə vurğulamaq istərdim. Çünki araşdırmalara görə, gələcək peşələrinin içərisində həkimlik və sağlamlıq xüsusi yer tutacaq. Bununla paralel olaraq isə rəqəmsal marketinq, insan inkişafı (HR, kouçinq, təlimçilik, karyera məsləhətçiliyi) və layihə idarəçiliyi peşələri də bazarda tələb olunandır".

## Enerji mühəndislərinə böyük tələbat olacaq...

Ekspert qeyd edib ki, qlobal istiləşmə və ekoloji problemlər alternativ enerji mənbələrinə olan tələbatı artırdığından Günəş, külək və digər ekoloji təmiz enerji mənbələri üzrə mütəxəssislər də gələcəkdə mühüm rol oynayacaqlar: "Bu səbəbdən alternativ enerji mühəndislərinə də gələcəkdə böyük tələbat olacaq. Əmək bazarında baş verən dəyişikliklər onu göstərir ki, ənənəvi peşələrdən bəziləri tədricən yox olsa da, əvəzində yeni və daha innovativ peşələr yaranır".

Bütün bunlardan belə qənaətə gəlmək olar ki, gələcəyin peşələrinə yiyələnmək üçün insanlar yeniliklərə daim açıq olmalı, bilik əldə etməli, texnologiyaya uyğunlaşmalı və innovativ bacarıqlarını inkişaf etdirməlidirlər. Bu, günün tələbidir...

***Yeganə BAYRAMOVA***


# Nar"dan "OneRepublic" konsertinə xüsusi hədiyyə: Səhnəyə ən yaxın sən ol!

Sərfəli mobil operator "Nar" 28 aprel tarixində Bakı Kristal Zalında baş tutacaq "OneRepublic" konsertinin əsas dəstəkçisi olaraq, musiqi həvəskarlarını sevindirəcək. Musiqi və əyləncə dolu bu tədbirə öz abunəçilərini daha da yaxın etmək məqsədilə "Nar" sosial şəbəkələrdə xüsusi müsabiqəyə start verib.




Müsabiqədə iştirak etmək üçün sadəcə "Nar"ın rəsmi "Instagram" səhifəsindəki paylaşımın şərh bölməsində dostunu işarələmək kifayətdir.

İştirakçılar arasından 5 nəfər təsadüfi seçimlə qalib müəyyən olunacaq və hər biri 2 nəfərlik pulsuz bilet qazanacaq. Qeyd edək ki, müsabiqə 24 aprel saat 23:59-a qədər davam edəcək.

"Nar" gənclərin dinamik həyat tərzinə və musiqi zövqünə uyğun olaraq, texnologiya və əyləncəni bir araya gətirməyə davam edir. Həm musiqi, həm də hədiyyələrlə dolu bu fürsəti qaçırmayın!

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


**İdman**

# Azərbaycanda təşkil olunacaq III MDB Oyunları ilə bağlı ilk mətbuat konfransı keçirilib

Azərbaycanın ev sahibliyi edəcəyi III MDB Oyunlarına həsr olunmuş ilk mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda tədbirə hazırlıq mərhələsi haqqında media nümayəndələrinə ətraflı məlumat verilib.

Bakı Şəhər Halqası (BHŞ) Əməliyyat Şirkətinin milli mətbuat katibi Arzu Hüseynova Təşkilat Komitəsinin üzv qurumları, Gənclər və İdman Nazirliyi, BHŞ ilə birgə inzibati məsələlər, tədbir məkanlarının hazırlıq vəziyyətinə gətirilməsi, iştirakçıların akkreditasiyası, yerləşdirilməsi və digər məsələlər üzrə hazırlıq işlərininin davam etdirildiyini vurğulayıb: "Hər qəlbdə bir qələbə!" şüarı altında keçiriləcək III MDB Oyunları Azərbaycanın 7 bölgəsində - Gəncə, Qəbələ, Şəki, Yevlax. Xankəndi, Göygöl, Mingəçevir şəhərlərində təşkil olunacaq. Açılış və bağlanış mərasimi isə Gəncə şəhər stadionunda baş tutacaq. Ümumilikdə 23 idman növü üzrə 12 idman obyektində yarışlar keçiriləcək. Oyunlarda 5500-ə yaxın iştirakçı gözlənilir. Tədbirə MDB ölkələri ilə yanaşı, digər ölkələrin də dəvət olunması nəzərdə tutulur".




BHŞ rəsmisi Oyunlarda medallarla bağlı narazılıq və problemin olmaması üçün maksimum dərəcədə çalışacaqlarını diqqətə çatdırıb. O, yarışlarda milli komandanın qarşısına ən yüksək hədəflərin qoyulacağını da deyib.

Sonra mətbuat konfransında III MDB Oyunlarının maskotları - enerjili, mehriban Bəbir və Leyla ictimaiyyətə təqdim olunub. Onların Qafqaz bəbirinin obrazında yaradılmaqla, sadəcə simvol deyil, həm də Azərbaycanın zəngin təbiətini, gücünü və qonaqpərvərliyini parlaq şəkildə təcəssüm etdirildiyi qeyd edilib.

Ardınca III MDB Oyunlarının rəsmi internet saytı təqdim olunub. Bildirilib ki, artıq istifadəyə verilən www.cisgames2025.com saytında tədbirlə bağlı hazırlıq prosesi, yarış cədvəlləri, idman məkanları, könüllü və media qeydiyyatı ilə bağlı ən son yenilikləri əldə etmək mümkün olacaq.



Bakı Şəhər Halqasının İnsan Resursları və İşçi Qüvvəsi Şöbəsinin rəhbəri İranə Əhmədova III MDB Oyunları ilə əlaqədar Könüllü Proqramına start verildiyini söyləyib: "Proqram çərçivəsində paytaxt Bakı və əsasən də regionlardan 3000-ə yaxın könüllünün Oyunlara cəlb olunması gözlənilir. Qeyd etmək lazımdır ki, bölgələrdə bu istiqamətdə bir sıra tədbirlər görülür, gənclərlə maarifləndirici görüşlər keçirilir. Əsas məqsəd region gənclərinin bacarıqlarının inkişafına, onların beynəlxalq müstəvidə təcrübə və biliklərinin artmasına dəstək olmaqdır".

Sonda media nümayəndələrini maraqlandıran suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, III MDB Oyunları sentyabrın 28-dən oktyabrın 8-dək davam edəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4949**
**Sifariş: 844**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova